**A.A.MƏMMƏDOVA**
*doktorant*
*e-mail: tagiyevaafaq78@gmail.com*
**:https://orcid.org/0009-0000-7554-3710**

**Bakı Dövlət Universiteti**
(Bakı şəh., Z.Xəlilov küç., 23)

**10.62021/0026-0028.2025.3.310**

# AZƏRBAYCAN NƏŞRİYYATLARINDA QARABAĞ ZƏFƏRİ MÖVZUSUNDA BƏDİİ ƏDƏBİYYATIN REDAKTƏ XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Mövzu ilə bağlı təqdim olunan elmi tədqiqatda Azərbaycan nəşriyyatlarının Qarabağ Zəfəri mövzusunda nəşr etdikləri bədii ədəbiyyat nümunələrinin redaktə xüsusiyyətləri araşdırılır. Qarabağ Zəfəri, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq, milli yaddaşda dərin iz buraxmış və nəşriyyatlar tərəfindən geniş şəkildə sənədləşdirilmişdir. Tədqiqatda Qarabağ Zəfəri mövzusunda müxtəlif nəşriyyatlar tərəfindən çap olunmuş əsərlərin adları qeyd olunmuş, redaktə, məzmun və texniki baxımdan təhlil isə "Elm və Təhsil" nəşriyyatı tərəfindən nəşr edilən nümunələr əsasında aparılmışdır. Həmid Kəsəmənli, Xəlil Rza Ulutürk və Arzu Əsədin əsərləri nümunə kimi götürülərək onların poetik strukturu, ideoloji yüklənməsi, redaktə keyfiyyəti və ifadə vasitələri kontekstində üstünlükləri və məhdudiyyətləri müəyyənləşdirilmişdir. Nəticə olaraq, tədqiqatda vurğulanır ki, Qarabağ Zəfərinə həsr olunmuş nəşrlərin elmi və texniki keyfiyyət göstəricilərinin yüksəldilməsi, həm milli kimliyin qorunması, həm də bu mövzunun beynəlxalq müstəvidə effektiv təbliği baxımından mühüm əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *Qarabağ Zəfəri, redaktə prosesi, Azərbaycan nəşriyyatları, bədii ədəbiyyat, milli yaddaş, redaktə xüsusiyyətləri*

Qarabağ Zəfəri, Azərbaycanın 30 illik işğal dövründən sonra, 2020-ci ildə baş vermiş Vətən Müharibəsi nəticəsində əldə etdiyi tarixi qələbədir. Bu zəfər yalnız hərbi və siyasi sahədə deyil, həmçinin mədəniyyət, incəsənət və nəşriyyat fəaliyyətində də geniş şəkildə əks olunmuşdur. Azərbaycan nəşriyyatları bu zəfərin təbliğinə xüsusi diqqət ayıraraq, milli ruhun və qələbənin əbədiləşdirilməsi məqsədilə çoxsaylı kitablar nəşr etmişdir. Məqalədə Qarabağ Zəfərinin Azərbaycan nəşriyyatlarının kitab repertuarında əks olunması təhlil ediləcəkdir [12].

Qarabağ Zəfəri, Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, milli kimliyin möhkəmləndirilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Bu zəfər, xalqın azadlıq ruhunu, milli birlik şüurunu və mədəni irsə bağlılığını daha da gücləndirmişdir [11]. Nəşriyyatlar və yazıçılar bu tarixi hadisəni bədii, sənədli və elmi əsərlərlə ictimai yaddaşa həkk etməklə mühüm ictimai və ideoloji rol oynamışlar. Yarım əsrdən artıqdır ki, nəşriyyatların repertuarlarında Qarabağ mövzusu xüsusi yer tutur ki, bu da regionun zəngin tarixi-mədəni irsi və Azərbaycan dövlətçiliyi baxımından strateji əhəmiyyəti ilə bağlıdır. Xüsusilə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm zəfərdən sonra Qarabağla bağlı nəşrlərin həm say, həm də məzmun baxımından artdığı müşahidə olunur. Bu mövzunun dövlət və özəl nəşriyyatların repertuarında geniş yer alması təsadüfi deyil. Qarabağ Zəfərinin tarixi, qəhrəmanlıq salnamələri və xalqın milli birliyini əks etdirən əsərlər təkcə sənədli dəyər daşımır, həm də gələcək nəsillərə ötürülən mühüm ideoloji və mənəvi irs kimi qiymətləndirilir [8, s.154].

Qarabağ Zəfəri ilə bağlı nəşr olunan kitablar müxtəlif aspektləri əhatə edən bir neçə kateqoriyaya bölünür və hər biri özünəməxsus məqsədlərə xidmət edir. İlk növbədə, sənədli kitablar və monoqrafiyalar müharibənin xronologiyası, hərbi strategiyalar, beynəlxalq hüquqi

aspektlər və diplomatik səylərlə bağlı məlumatları təqdim edir [10]. Bu kateqoriyaya daxil olan "Qarabağ: Zəfərin Yol Xəritəsi" adlı monoqrafiyada zəfərin siyasi və hərbi aspektləri dərin şəkildə təhlil edilir. Bununla yanaşı, yazıçılar və şairlər Qarabağ Zəfərini bədii əsərlərdə tərənnüm edərək, qələbənin emosional yükünü, xalqın azadlıq mübarizəsini və qəhrəmanların şücaətini oxuculara çatdırmışlar. Məsələn, Xalq yazıçısı Anarın "Zəfər Nəğməsi" poeması bu zəfərdəki vətənpərvərlik ruhunu ustalıqla təsvir edir. Fotoalbomlar və vətənpərvərlik ruhunda hazırlanmış kitablar Qarabağ Zəfərinin vizual salnaməsini təqdim edir. Belə nəşrlərdən biri olan "Zəfər Yollarında" adlı fotoalbomda müharibə tarixini əks etdirən arxiv kadrlar və azad edilmiş ərazilərin görüntüləri toplanmışdır [11]. Bundan əlavə, təhsil və maarifləndirici kitablar xüsusilə gənc nəslin milli-mənəvi dəyərlərlə tanışlığını təmin edir. Bu dərs vəsaitləri və maarifləndirici nəşrlər vasitəsilə Qarabağ Zəfərinin əhəmiyyəti gələcək nəsillərə çatdırılır, vətənpərvərlik ruhu aşılanır. Beləliklə, Qarabağ Zəfəri mövzusunda nəşr olunmuş kitablar milli tariximizin təbliği və yaddaşların qorunması baxımından əvəzsiz rol oynayır [8, s.258].

Azərbaycan nəşriyyatları Qarabağ Zəfərinin təbliğində iştirak etməklə yanaşı, eyni zamanda bir sıra mühüm məqsədlərə xidmət edirlər. Ədəbiyyatın bu dövrdəki əsas funksiyalarından biri, baş vermiş hadisələrin yalnız emosional müstəvidə deyil, eyni zamanda tarixi və siyasi reallıqlar əsasında əsaslandırılmış şəkildə təqdim edilməsindən ibarətdir. Bu kontekstdə nəşriyyatların fəaliyyəti təkcə əsərlərin çapı ilə məhdudlaşmamalı, təqdim olunan faktoloji məlumatlar daha konkret formada işlənməli və müvafiq tarixi sənədlərlə əsaslandırılmalıdır. Məsələn, Şuşanın azad olunması yalnız simvolik əhəmiyyət daşımır, bu əməliyyat beynəlxalq hərbi ekspertlər tərəfindən yüksək dəyərləndirilmiş strateji hadisə kimi də qiymətləndirilir [10, s.96]. Belə tarixi detalların oxucuya çatdırılması təkcə emosional deyil, həm də analitik düşüncə bacarıqlarının formalaşdırılması baxımından zəruridir. Bununla yanaşı, Azərbaycan nəşriyyatlarının ingilis, rus və digər xarici dillərdə Qarabağ Zəfəri mövzusunda kitablar nəşr etməsi beynəlxalq təbliğat fəaliyyətinə əhəmiyyətli töhfə verir, ölkənin zəfər tarixini beynəlxalq auditoriyaya tanıdır və Qarabağın azadlığı uğrunda aparılmış mübarizənin ədalətliliyini dünya ictimaiyyətinə çatdırır. Beləliklə, nəşriyyatlar Qarabağ Zəfərinin həm milli, həm də qlobal miqyasda tarixi və ideoloji əhəmiyyətini nümayiş etdirən çoxşaxəli fəaliyyət həyata keçirirlər [12]. Qeyd olunmalıdır ki, İkinci Qarabağ müharibəsinə həsr olunmuş kitablar yalnız hərbi-siyasi hadisələri deyil, eyni zamanda ictimai, mədəni və diplomatik aspektləri də əhatə edir. Bu kontekstdə AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Nazim Məmmədovun "*İkinci Qarabağ müharibəsi: Zəfər salnaməsi"* adlı kitabı önəmli bir araşdırma kimi çıxış edir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və "IRS Publishing House" tərəfindən hazırlanmış "*Zəfər Salnaməsi"* adlı nəşr də bu sahədə xüsusi əhəmiyyət kəsb edən əsərlərdən biridir. AMEA prezidenti, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə hazırlanaraq "Elm" nəşriyyatında çap olunan "*Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək"* kitabı Qarabağ Zəfərinin hərbi və siyasi aspektlərini əhatə edən fundamental mənbə kimi çıxış edir [8, s.45]. Sərxan Şahverdiyevin müəllifi olduğu və "Mücrü" nəşriyyatı tərəfindən nəşr edilən "*Zəfər Tariximiz"* adlı kitab da geniş oxucu auditoriyasının marağına səbəb olmuşdur.

Bu dövrdə müxtəlif nəşriyyatlar tərəfindən Qarabağ Zəfərinə həsr olunmuş çoxsaylı bədii əsərlər işıq üzü görmüşdür. Xüsusilə "Elm və Təhsil" nəşriyyatı tərəfindən Həmid Kəsəmənlinin "*Zəfər çalıb, tarix yazdıq"* (Bakı, 2021), Xəlil Rza Ulutürkün "*O gün gələcək"* (Bakı, 2020), Zöhrə Qaraqızının "*Zəfər yolu"* (Bakı, 2021) və Arzu Əsədin "*Və nida"* (Bakı, 2020) əsərləri nəşr edilmişdir. Eyni zamanda "Azərnəşr" nəşriyyatı Vahid Əzizin "*Param-parça illər"* (Bakı, 2021), "İmza" nəşriyyatı Şahnaz Şahinin "*Zəfər nəğmələri"* (Bakı, 2021) və "*Şuşa haqqı"* (Bakı, 2022), Almaz Alıqızının "*Zəfər köynəkli Vətən"* (Bakı, 2022), eləcə də Aliyə Əzizgülün "*Gözlərinin qibləsi"* (Bakı, 2022) adlı əsərlərini çap edərək oxuculara təqdim etmişdir. Paralel olaraq, "Elm və Zəka" nəşriyyatında Rəna Mərzilinin "*Qanı ilə Zəfər yazanlar"* (Bakı, 2021), "Qanun" nəşriyyatında isə "*Zəfər yolu"* (Bakı, 2020) adlı kitablar

nəşr olunmuşdur. "Zərdabi Nəşr" nəşriyyatı Şöhlət Abbasın "*Zəfər dastanı*" (Bakı, 2021) və Zemfira Məhərrəmlinin "*Bədii düşüncədə Qarabağ*" (Bakı, 2021) əsərlərini, "Mütərcim" nəşriyyatı isə Nəsir Qədirlinin "*Qana bələnmiş torpaq*" (Bakı, 2022), "Gənclik" nəşriyyatı Murad Heydəroğlunun "*Əsrin astanasında*" (Bakı, 2022), "Təhsil" nəşriyyatı isə "*Ölümü fəth edənlər*" (Bakı, 2021) adlı hekayələr toplusunu çap etmişdir [11].

Sadalanan nəşrlər Qarabağ Zəfərinin müxtəlif ideoloji, emosional və tarixi aspektlərini əhatə etməklə, oxuculara zəngin və rəngarəng məzmun təqdim edir. Hər bir nəşriyyat zəfər mövzusunun bədii ədəbiyyat vasitəsilə təbliğində özünəməxsus töhfə vermiş və bu hadisənin kollektiv yaddaşda yaşadılmasına xidmət etmişdir. Bu nəşrlərdə Qarabağın azad olunmasında əvəzsiz xidmətlər göstərmiş qəhrəmanların həyat yolu, onların Vətənə olan bağlılığı və xalqın milli birliyi geniş şəkildə təsvir olunur [1, s.38]. Bununla yanaşı, mövcud nəşrlərin bolluğuna baxmayaraq, hansı nəşriyyatın bu mövzuda daha çox kitab çap etdiyi barədə sistemli və dəqiq statistik məlumatın olmaması bu sahədə müəyyən bir boşluğu göstərir. Buna baxmayaraq, bütün bu nəşriyyatların fəaliyyəti Azərbaycanın tarixi yaddaşının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm strateji əhəmiyyətə malikdir [10, s.192]. Eyni zamanda, yuxarıda adı çəkilən bədii ədəbiyyat nümunələrinin redaktə baxımından təhlili də elmi baxımdan diqqətəlayiqdir. Bu əsərlərin məzmun, dil və üslub xüsusiyyətlərinin sistemli şəkildə araşdırılması, struktur və ifadə vasitələrinin uyğunluğu əsasında aparılan təhlillər Qarabağ Zəfəri mövzusunda nəşr olunan bədii ədəbiyyatın keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsinə, əsərlərin elmi-nəzəri dəyərinin üzə çıxarılmasına və onların oxucuya daha aydın şəkildə təqdim olunmasına xidmət edir [11].

"Elm və Təhsil" nəşriyyatında Qarabağ mövzusuna həsr olunmuş bir sıra şair və yazıçıların əsərləri redaktə baxımından təhlil edilmişdir. Bu əsərlər sırasında Həmid Kəsəmənlinin "*Zəfər çalıb, tarix yazdıq*" adlı kitabı ideya yükü və müəllifin fərdi üslubu baxımından xüsusi diqqət çəkir. Əsər 2023-cü ildə 216 səhifə həcmində və 200 nüsxə tirajla çap olunmuşdur. Kitabın redaktoru Dəyanət Osmanlı, texniki redaktoru Rövşanə Nizamiqızı, dizayneri Zahidə Məmmədova, kompüter tərtibatçısı isə Sevda Ağazadə olmuşdur [6, s.215].

Əsər Qarabağ Zəfərinin əzəmətini, milli qürur və qəhrəmanlıq ruhunu bədii ifadə vasitələri ilə oxucuya çatdırmaq məqsədi daşıyır. Məzmunun daha dolğun qavranılması üçün müəllifin şəxsiyyəti haqqında qısa məlumat təqdim olunması məqsədəuyğundur. Həmid Kəsəmənli fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru olmaqla yanaşı, uzun illər pedaqoji və elmi fəaliyyətlə məşğul olmuş, eyni zamanda bədii yaradıcılıqla da fərqlənmişdir. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü olmaqla yanaşı, milli-mənəvi dəyərlərin ədəbiyyatda ifadəsinə töhfə verən nüfuzlu müəlliflərdəndir. Onun "Azərbaycan", "Vətən yaşamalıdır", "Vətən istər", "Qisasımızı aldıq" və "Ay türk oğlu" kimi poetik nümunələri vətənə və torpağa olan sevgisini və sadiqliyini ifadə edir [6, s.3].

"*Zəfər çalıb, tarix yazdıq*" əsərində müəllif Qarabağ Zəfərinin xalqımız üçün əhəmiyyətini vurğulayaraq, qəhrəmanlıq salnaməsini bədii dilin emosional təsiri ilə oxucuya çatdırmağa çalışır. Əsərin dili koloritli və təsirli ifadələrlə zəngindir. Bu isə oxucuda emosional reaksiya oyatmaq baxımından əhəmiyyətlidir [3, s.49]. Xalq ruhunu ifadə edən bədii vasitələr və milli-mənəvi dəyərlərə söykənən təsvirlər əsərin estetik gücünü artırır. Bununla belə, bəzi məqamlarda məzmunun daha səmərəli şəkildə təqdim olunması üçün struktur baxımından təkmilləşdirilməyə ehtiyac duyulduğu görünür. Bu məqsədlə kitabın müxtəlif hissələrində redaktə təhlilləri aparılmışdır. Əsərin ümumi strukturu proloq, poema, müxtəlif şeirlər və məqalələrdən ibarətdir [6, s.210]. Mövzu baxımından əsər bütövlükdə Vətən müharibəsi, Qarabağ Zəfəri, şəhidlik ideyası və milli ruhun dirçəlişi ətrafında qurulmuşdur. Lakin bu geniş məzmunun oxucuya çatdırılmasında müəyyən redaktə və texniki çətinliklər nəzərə çarpır.

Kitaba "Giriş" və ya "Ön söz" verilməmişdir. Nəzm əsərlərində bu cür bölmələrin olmaması qüsur hesab edilməsə də, əgər əsər konkret mövzuya və ya dövrə həsr olunubsa, müəllifin məqsədi və niyyəti haqqında ön məlumatın verilməsi oxucunun mətnə daha hazırlıq-

lı yanaşmasına imkan yarada bilər. Belə hallarda giriş və ya ön söz oxucunun məzmunu daha dolğun qavramasına kömək edən mühüm vasitə funksiyasını daşıyır [10, s.172].

Redaktə baxımından əsərin dili ümumilikdə aydın, emosional və təsirlidir. Müəllif milli duyğuları, Qarabağ Zəfərinin ictimai mənəvi əhəmiyyətini bədii vasitələrlə oxucuya çatdırmağa çalışır. Bununla belə, fikir və ifadə təkrarları bəzi şeirlərdə müşahidə olunur. Bu təkrarlılıq bədii təsir gücünü zəiflətməklə yanaşı, oxucuya monoton təsir bağışlayır. Təhlillər göstərir ki, bəzi cümlələrdə təkrarlıq aradan qaldırılsa və ifadələrdə daha dəqiq struktura üstünlük verilsə, əsərin oxucu üzərindəki təsiri daha güclü olar [10, s.248]. Bəzi misralarda sintaktik quruluşların yüklənməsi, uzun və ardıcıl qafiyələnmiş sətirlərin ritm pozuntusuna səbəb olduğu görünür. Bu bölmələrdə fikirlərin daha ardıcıl şəkildə təqdim olunması oxucuya ideyanın daha aydın çatdırılmasına kömək edə bilər. Buna görə də redaktə prosesində qısaltma və struktur sadələşdirməsi ilə daha yığcam və dinamik poetik dil formalaşdırıla bilərdi.

Mündəricat bölməsi kifayət qədər zəngin olub, 70 şeir və 10 məqalənin daxil edilməsi ilə həm ədəbi, həm də nəzəri baxımdan oxucuya dəyərli material təqdim edir [6]. Əsərlərin mövzu üzrə çeşidlənməsi və məqalələrin yerləşdirilməsi müəllifin poetik baxışlarının elmi əsaslandırılması məqsədinə xidmət edir. Xüsusilə "Poeziyada yeni yaradıcılıq üslubu – Kəsə üslub" və "Reallıqdan qaynaqlanan doğru yönəldici fikirlər" adlı məqalələr müəllifin poetika və poeziya anlayışına fərdi yanaşmasını əks etdirir. Texniki baxımdan isə kitabın tərtibatı orta səviyyədə qiymətləndirilə bilər. Mündəricat dəqiq və ardıcıl, poemanın və şeirlərin yerləşdirilməsi isə məntiqi baxımdan məqsədəuyğundur. Bununla belə, başlıqların tipoqrafik cəhətdən fərqləndirilməməsi, "Poema", "Məqalələr" kimi bölmələrin digər başlıqlardan seçilmədən eyni formatda verilməsi oxucu üçün vizual istiqamət baxımından müəyyən çətinlik yaradır. Həmçinin yazı ölçüsü, sətir aralıqları və səhifə boşluqları vizual yorğunluğa səbəb olur [10, s.261]. Əsərin çapı ümumilikdə qənaətbəxş sayılsa da, nəfis nəşr standartlarına uyğunluq baxımından bəzi çatışmazlıqlar mövcuddur.

Tərtibat və dizayn aspektindən kitabın üz qabığı sadə, lakin funksional təqdim olunmuşdur. Müəllifin fotosu və bioqrafiyası kitabın arxa üzündə yer alır. Bioqrafiyada onun pedaqoji və elmi fəaliyyəti, eləcə də "kəsə üslub" adlı poetik yaradıcılıq prinsipi haqqında məlumat verilməsi elmi dəyəri artırır [6]. Lakin üz qabığında Qarabağ Zəfərini simvolizə edən vizual elementlərə yer verilməməsi ciddi estetik boşluq yaradır. Bayraq, Xarıbülbül, Şuşa qalası, şəhid simvolları kimi motivlər tərtibatda yer alsaydı, nəşrin ideoloji təyinatı daha aydın görünərdi [3, s. 50].

Nəticə etibarilə, Həmid Kəsəmənlinin "Zəfər çalıb, tarix yazdıq" kitabı Qarabağ Zəfərinin bədii təcəssümündə xüsusi yer tutur. Əsərdəki ideoloji mövqe, vətənpərvərlik ruhu, emosional təsvirlər və xalq duyğularına söykənən motivlər diqqətəlayiqdir. Lakin kitabın redaktə, texniki və dizayn baxımından müəyyən zəif cəhətləri onun bütövlükdə potensialını tam şəkildə oxucuya çatdırmasına mane olur. Təklif olunur ki, bu cür əsərlər nəşrə hazırlanarkən mütəxəssis redaktor və tərtibatçılarla daha sıx əməkdaşlıq qurulsun, oxucuya yönəlik texniki rahatlıq və vizual cazibə də əsas prinsiplərdən biri kimi nəzərə alınsın.

"Elm və Təhsil" nəşriyyatında işıq üzü görən və Qarabağ mövzusuna həsr olunmuş növbəti nəşr, Xəlil Rza Ulutürkün "O Gün Gələcək" adlı əsəridir. 568 səhifədən ibarət bu kitab, 2020-ci ildə 300 nüsxə tirajla çap edilmişdir. Xalq şairi Xəlil Rza Ulutürkün bu fundamental əsəri 40 illik yaradıcılığını əhatə edir [9]. "O gün gələcək" ifadəsi yalnız poetik rəmz deyil, həm də milli ideyanın, istiklaliyyət arzusunun mərkəzi fikridir. Nəşrin tərtibində AMEA Nizami adına Ədəbiyyat İnstitutunun filologiya üzrə fəxri doktoru və akademik Y.Məmmədəliyev, Rəsul Rza, "Araz", Xəlil Rza Ulutürk mükafatlarının laureatçısı Firəngiz xanım Ulutürk, redaktoru Zülfüqar Şahsevənli, dizayneri Kamran İbrahimov və texniki redaktoru Rövşanə Nizamiqızı iştirak etmişlər. Mətnin poetik dili yüksək səviyyədə saxlanılmış, redaktədə müəllif üslubuna müdaxilə olunmamışdır ki, bu da müsbət haldır [2, s.170].

Bu əsər poetik üslubu ilə özünəməxsusluq nümayiş etdirir və Qarabağ mövzusuna poetik yanaşmanın örnəyi kimi qiymətləndirilə bilər. Əsərdəki metaforik və simvolik ifadələ-

rin istifadəsi, oxucuda dərin emosional təsir yaratmaq qabiliyyətinə malikdir. Lakin texniki redaktədə bəzi səhvlər nəzərə çarpır. Bəzi bölmələr arasında keçidlər kəskin şəkildə kəsilir, izah və ya təqdimat verilmədən poetik blokdan başqa bloklara keçid baş verir. Belə keçidlər oxucu üçün anlayış boşluğu yarada bilər. Xüsusilə "poema" və "dastançalar" bölmələri arasında ayrı-ayrılıqda təqdimat mətnləri əlavə olunmalı idi [10, s. 289].

Əsərin tipi və formatı genişhəcmli nəşr formasında planlaşdırılıb (568 səhifə). Yazı fontu oxunaqlıdır, səhifələnmə ardıcıldır. Texniki redaktorun adı qeyd olunmuşdur (Rövşanə Nizamiqızı), bu da işin məsuliyyətli şəkildə aparıldığını göstərir. Amma səhifə içi və üst başlıqlar (footer, header) yer almır, bu da böyükhəcmli nəşr üçün strukturlaşma baxımından çatışmazlıqdır. Kitabın üz qabığında Xəlil Rza Ulutürkün portreti yerləşdirilib, bu isə oxucu ilə müəllif arasında vizual əlaqə yaradır. Başlıqda "O gün gələcək" ifadəsi qrafik baxımdan ön plandadır, lakin bu ifadənin bədii yükünü daha çox artıracaq simvollar – məsələn, günəş, sabah, şüar, gənclik kimi elementlər vizual dizaynda əksini tapmamışdır. Üz qabığının rəng seçimi (boz-mavi qarışığı) poetik üslubla deyil, daha çox ensiklopedik nəşrlərlə assosiasiya olunur [10, s. 251].

Qarabağ Zəfərinə həsr olumuş Arzu Əsədin 160 səhifədən ibarət "Və Nida!" kitabı 2020-ci ildə "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur. Əsərin elmi, publisistik və poetik məzmunu siyasi-ideoloji kontekstdə formalaşmış, Qarabağ Zəfəri ilə bağlı bədii təəssüratları, Prezidentin çıxışlarından ilhamlanan fikirləri, ictimai-siyasi fəlsəfəni əks etdirir [4]. Redaktə prosesində mətnin bütövlükdə emosional tonu qorunub saxlanılsa da, bəzi yerlərdə ideyanın təkrar ifadəsinə yol verildiyi müşahidə olunur. Məsələn, "Və nida!" ifadəsi əsərin bir neçə hissəsində həm başlıq, həm açar termin, həm də şərh elementi kimi istifadə olunmuşdur. Bu isə həm məna yükünü, həm də semantik ardıcıllığı zəiflədə bilər.

Əsərin elmi redaktəsi Nizami Cəfərovun adı ilə təqdim olunsa da, mətnlərdə bəzi qeyri-dəqiq ifadələr ("qəhrəman xalqın nida ilə danışan iradəsi","ruhani tarixə çevrilən ifadələr" və s.) daha konkret və tarixi reallıqlara əsaslanaraq ifadə olunmalı idi [4, s.102]. Redaktə baxımından əsas nöqsan, faktoloji nüansların emosional bədii dillə qarışdırılması və yerlərdə informasiyanın ümumiləşdirilməsi nəticəsində konkretliyin zəifləməsidir [10, s.307]. Kitabın çap keyfiyyəti qənaətbəxşdir. Yazı ölçüsü, səhifə planlaması və paraqraf strukturu oxucu rahatlığı baxımından əlverişlidir. Lakin başlıqların dizaynı (xüsusilə, "Söz öncəsi", "Və Nida!" ifadəsi, şeirlərin başlıqları və s.) tipoloji baxımdan fərqləndirilməmişdir. Bu da nəşriyyatın maket quruluşunda daha peşəkar tərtibata ehtiyac olduğunu göstərir. Kitabın üz qabığında Prezident İlham Əliyevin portreti və dövlət bayrağı ilə yanaşı "Və Nida!" başlığı verilib. Bu, kitabın ictimai-siyasi mövqeyini və ideoloji məqsədini birbaşa təqdim edir. Lakin tərtibatda bədii əsər estetikasından çox rəsmi-inzibati təqdimat üslubu hiss olunur. Kitabın üz dizaynı onun poeziya kitabı deyil, siyasi sənəd toplusu təəssüratı yaradır. Bu isə əsərin ədəbi-bədii funksiyası baxımından tərtibatda nəzərə alınmalı əsas iraddır [10, s.245].

Nəticədə, aparılmış təhlillər göstərir ki, Qarabağ Zəfərinə həsr olunmuş bədii və publisistik əsərlər mövzuya fərqli estetik və ideoloji yanaşmalarla yazılmışdır və onların əksəriyyəti redaktə baxımından təkmilləşdirilməyə açıqdır. Bu cür əsərlərin daha dəqiq faktoloji bazaya söykənməsi, dil və üslub baxımından peşəkar şəkildə işlənməsi, həmçinin tərtibatda simvolik elementlərdən səmərəli istifadə olunması, onların ictimai və estetik təsir gücünü artırmaqla oxucuya daha effektiv çatdırılmasına imkan verir. Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında və nəşriyyat sektorunda daim prioritet istiqamət olaraq qalmış, zəfərdən sonra bu mövzu ədəbi və elmi diskursun mərkəzinə çevrilmişdir. Bu nəşrlər yalnız emosional təsir daşıyan bədii nümunələr deyil, eyni zamanda Azərbaycanın mübarizə ruhunu, milli kimliyini və tarixini əks etdirən elmi və ideoloji mənbələr kimi çıxış edir.

***Elmi nəticə:*** Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Qarabağ Zəfərindən sonra Azərbaycan nəşriyyatlarının fəaliyyətində nəzərəçarpacaq ideoloji və tematik dəyişiklik müşahidə edilmiş, bu istiqamətdə çap olunan kitablar say və məzmun baxımından əhəmiyyətli

dərəcədə artmışdır. Ədəbi və sənədli əsərlərdə Qarabağla bağlı qəhrəmanlıq salnamələrinin, müharibə tarixinin və milli birlik ruhunun bədii dildə ifadəsi nəinki ictimai emosiyanın sənədli izinə çevrilmiş, eyni zamanda kollektiv yaddaşın formalaşmasına yönəlmişdir. Bədii ədəbiyyat nümunələri yalnız emosional deyil, həm də siyasi, hərbi və ictimai məzmun daşımaqla, həm tarixşünaslıq, həm də kulturoloji baxımdan mühüm mənbəyə çevrilmişdir. Bütün bu faktlar göstərir ki, Qarabağ Zəfəri ilə bağlı nəşrlər, xüsusilə poeziya və sənədli materiallar, həm milli ruhun möhkəmləndirilməsi, həm də zəfərin ictimai şüurda sabitləşdirilməsi baxımından mühüm rol oynayır və bu əsərlərin elmi baxımdan sistemli təhlili zəruridir.

***Elmi yenilik:*** Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Qarabağ Zəfərinə həsr olunmuş bədii və publisistik əsərlərin redaktə səviyyəsində ilk dəfə olaraq kompleks şəkildə təhlili həyata keçirilmiş, nəşriyyat fəaliyyətində mövzuya yanaşma tərzləri, məzmun strukturunda müşahidə edilən fərqliliklər, texniki və estetik çatışmazlıqlar sistemləşdirilmişdir. Həmçinin ayrı-ayrı müəlliflərin fərdi üslubları və ideoloji mövqeləri müqayisəli şəkildə qiymətləndirilmiş, redaktə və dizayn problemləri, terminoloji və faktoloji uyğunsuzluqlar konkret nümunələr üzərində əsaslandırılmışdır. Əldə olunmuş elmi nəticələr Azərbaycan nəşriyyatlarında Qarabağ mövzusunun yalnız emosional təqdimatla deyil, faktlara əsaslanan, tarixi və mədəni kontekstdə təqdim olunmasının vacibliyini göstərməklə, bu sahədə elmi-nəzəri yanaşmanın formalaşdırılmasına əsas yaradır.

***Tətbiq əhəmiyyəti:*** Aparılmış təhlilin tətbiq əhəmiyyəti ondan ibarətdir ki, Qarabağ Zəfəri ilə bağlı nəşr olunmuş bədii və sənədli əsərlərin redaktə və nəşr keyfiyyətinin artırılması, gələcəkdə bu mövzuya həsr olunacaq nəşrlərin peşəkar səviyyədə hazırlanması və təqdimatı üçün praktiki istiqamətlər təqdim edir. Təhlil nəticələri əsasında ədəbiyyatşünaslar, redaktorlar, tərtibatçılar və nəşriyyat mütəxəssisləri üçün metodoloji tövsiyələr formalaşdırıla bilər. Həmçinin Qarabağ mövzusunun beynəlxalq auditoriyaya çatdırılması baxımından xarici dillərdə nəşrlərin hazırlanmasında bu tədqiqatın nəticələri mühüm təlimat funksiyası daşıyır. Nəticə etibarilə, Qarabağ Zəfərinin ədəbi şəkildə təbliği, yalnız mədəni yaddaşın qorunması deyil, həm də milli ideologiyanın müasir informasiya mühitində sistemli şəkildə təqdim olunması baxımından strateji əhəmiyyət kəsb edir.

## Ədəbiyyat


1. Abdullayeva, S. Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu / S.Abdullayeva, – Bakı: Elm və Təhsil, – 2021.
2. Aslan, K. Nəşriyyat və redaktə məsələləri: Tədris vəsaiti / K.Aslan, Ş.Tahirqızı, N.Mehrəliyeva, – Bakı: Müəllim, –2018. –384 s.
3. Aslan, K. Ədəbiyyat və bədii əsərlərin müxtəlif janrlarının redaktə xüsusiyyətləri. Biblioqrafiya elmi və redaktə bacarıqları // – Bakı, № 1-2, (4-5). – 2017, – s.30-54.
4. Əsəd, A. Və Nida / A.Əsəd, – Bakı: Elm və Təhsil, – 2020. – 160 s.
5. Əziz, V. Param-parça illər...: Qarabağ dəftərindən seçmələr, 1988-2021 (Şeirlər və poema) / V.Əziz, – Bakı: Azərnəşr, – 2021. – 244 s.
6. Kəsəmənli, H. Zəfər çalıb, tarix yazdıq / H.Kəsəmənli, – Bakı: Elm və Təhsil, – 2023. – 216 s.
7. Osmanlı, D.(red). Zəfər duyğuları: Poeziya antologiyası / D.Osmanlı, – Bakı: Elm və Təhsil, – 2022.
8. Şərifova, S.S. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin janr xüsusiyyətləri, problemləri, obrazları və bədii dili / S.S.Şərifova, – Bakı: Elm və Təhsil, – 2022. – 444 s.
9. Ulutürk, X.R. O gün gələcək / X.R.Ulutürk, – Bakı: Elm və Təhsil, – 2020. – 568 s.
10. Vəliyev, İ.Ö. Redaktənin əsasları / İ.Ö.Vəliyev, – Bakı: Günəş, – 2009. – 404 s.
11. UNESCO. Azərbaycanın qeyri-maddi mədəni irsi. 2020, https://ich.unesco.org
12. Azərbaycan Respublikasının Prezidenti. Çıxışlar arxivi. https://president.az/az/articles/view/22785

**A.A.Mammadova**

**Editorial Features of Literary Works on the Karabakh Victory in Azerbaijani Publishing Houses**

***Summary***

This scholarly study examines the editorial characteristics of literary publications on the topic of the Karabakh Victory released by Azerbaijani publishing houses. The Karabakh Victory, which emerged as a result of the Second Karabakh War in 2020, has left a profound imprint on national memory and has been widely documented through publishing activities. The study lists the titles of works published by various publishing houses on the subject, while the editorial, structural, and technical analysis is conducted specifically based on samples published by *Elm və Təhsil* (Science and Education) publishing house. Works by Hamid Kasamanli, Khalil Rza Uluturk, and Arzu Asad are examined as examples, with their poetic structures, ideological content, editorial quality, and stylistic features analyzed to identify their strengths and limitations. The study concludes that improving the scientific and technical quality of publications dedicated to the Karabakh Victory is of vital importance for preserving national identity and ensuring effective international promotion of the topic.

***Keywords:*** *Karabakh Victory, editing process, Azerbaijani publishing houses, literary works, national memory, editorial features*

**А.А.Мамедова**

**Редакционные особенности художественной литературы на тему Карабахской Победы в азербайджанских издательствах**

***Резюме***

В представленном научном исследовании рассматриваются особенности редактирования художественных произведений, посвящённых теме Карабахской Победы, опубликованных азербайджанскими издательствами. Карабахская Победа, ставшая результатом Второй Карабахской войны 2020 года, оставила глубокий след в национальной памяти и была широко задокументирована средствами издательской деятельности. В исследовании перечислены названия произведений, опубликованных различными издательствами по данной теме, однако содержательный, редакционный и технический анализ проведён на примере изданий издательства *Эльм ве Тясил* ("Наука и образование"). В качестве примеров рассмотрены произведения Хамида Кясеманлы, Халиля Рзы Улутюрка и Арзу Асад, определены их поэтическая структура, идеологическая нагрузка, редакционные особенности и выразительные средства, а также выявлены их достоинства и ограничения. В заключение подчеркивается, что повышение научного и технического качества изданий, посвящённых Карабахской Победе, имеет важное значение как для сохранения национальной идентичности, так и для эффективного международного позиционирования темы.

***Ключевые слова:*** *Карабахская Победа, процесс редактирования, издательства Азербайджана, художественная литература, национальная память, особенности редактирования*

*Rəyçi: ped.f.d., dos. K.Aslan*

*Redaksiyaya daxil olub: 09.07.2025*